Ədəbiyyat qəzeti

5 dekabr 2020-ci il 21

Rüstəm BEHRUDİ



# TƏKBAŞINA ADAM

KAMAL ABDULLAYA

*"Unutmağa kimsə yox"deyən adam*
*yalnız deyil,təkbaşınadır*
*Təkbaşına olmaq yalnızlıq deyil.*
*Yalnızlıq tək başına ola bilməyən*
*adamın həmdərd axtarmaq çabası,*
*anlaşılmamaq iztirabıdır.*

*Nə qədər ki, vaxt var.*
*Görəcəksən, aydınlanır*
*bütün qaranlıqlar.*
*Onda gözlərini ay işığı ilə yu,*
*Saçlarını rüzgarla dara;*
*Sonra aç pəncərəni,*
*aç ayrılıqlara...*

*Görəcəksən - nə qorxu,*
*nə yalan var.*
*Gözlərini qapa, və düşün -*
*Əbədiyyət yoxdu...*

*Ondan qoparılmış*
*bir yarpaq,*
*bir ləçək,*
*bir an var.*
*Yum gözlərini*
*və bax;*
*Görəcəksən - nə qədər gözəldi*
*Sükutu pozulmadan*
*sözə daşımaq.*
*Və görəcəksən nə qədər gözəldi*
*gülləni qan axmadan*
*çıxarmaq yaradan.*
*Təkbaşınasan, təkbaşına...*
*Yum gözlərini,*
*aç pəncərəni;*
*aç və sorma nə isə.*
*Görəcəksən sükut içindədi Kəbə,*
*Sükut içindədi Qüdsdə*
*"ağlayan divarlar".*
*Görəcəksən - yenə səhrada*
*təkbaşına yürüyür İsa.*
*Yum gözlərini, aç pəncərəni*
*sonra, nə isə...*
*Təkbaşınasan, təkbaşına...*
*Çoxdan ölüb aralıqdakı*
*Şeytan;*
*Qorxma! Sükutun səsini*
*yaşa.*

*Sükutun içində*
*günəşin,*
*ayın, ulduzların,*
*Rüzgarın və yağmurun*
*keyfini çıxar, nəşəsini*
*yaşa.*
*Təkbaşına olmaq*
*yalnızlıq deyil;*
*Təklik sükutun səsidi.*
*Yalnızlığı boş ver, -*
*Yalnızlıq təkbaşına*
*yaşaya bilməməyin*
*hüzuru, nəşəsidi.*
*Kim nə deyir, desin -*
*Ağacdan yarpaq gözəldi,*
*çiçəkdən ləçək*
*əbədiyyətdən an*
*Göy üzündən - boşluqdan da yer.*
*Anı yaşa, əbədiyyəti*
*boş ver.*
*Qoy hər şey anın olsun.*
*Allaha ən kəsə yol sevgidi -*
*Sev, qoy o sənin Tövratın, İncilin*
*Quranın olsun.*
*Təkbaşına adam!*
*Yum gözlərini, aç pəncərəni*
*və bax;*
*Görəcəksən nə qədər gözəldi*
*Sükutu pozulmadan*
*sözə daşımaq.*

*Bakı 2016*